*Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!*

# YAP Nəsimi rayon təşkilatı növbəti videokonfrans keçirib



Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının Gənclər Birliyinin üzvlərinin iştirakı ilə videokonfrans formatında görüş keçirilib. Videokonfransı giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı hazırkı şəraitdə gənclərin üzərinə düşən vəzifələrdən danışıb.

Görüşdə çıxış edən YAP Nəsimi rayon təşkilatı Şurasının üzvü, millət vəkili Fatma Yıldırım respublikamızda gənclərin hərtərəfli inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb. O, ölkəmizin ən güclü siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının gənclərlə bağlı məsələlərə çox böyük əhəmiyyət verdiyini, gənclərin hərtərəfli inkişafına töhfə verdiyini, eyni zamanda, koronovirusa qarşı mübarizə çərçivəsində görülən işlərdə YAP gənclərinin xüsusi fəallığını qeyd edib.

YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov isə gənclər adından irəli sürülən təklifləri səsləndirib.

Tədbirin sonunda YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı koronovirus pandemiyası şəraitində təşkilatın üzərinə düşən vəzifələrlə bağlı fikirlərini bildirib.

**M.BAYRAMLI**

# YAP Səbail rayon təşkilatının Şura üzvlərinin və ərazi ilk partiya təşkilatı sədrlərinin onlayn formatda iclası keçirilib





İyulun 9-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında Şura üzvlərinin və ərazi ilk partiya təşkilatı sədrlərinin onlayn formatda növbəti iclası keçirilib. İclasda YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində ölkəmizdə həyata keçirilən ardıcıl, sistemli və qabaqlayıcı tədbirlər, ölkə başçısının qəbul etdiyi qərarlar və hökumət tərəfindən atılan addımlar haqqında danışıb.

Rayon təşkilatının sədri bildirib ki, Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə ölkə daxilində insanların sağlamlığının qorunması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər görməklə yanaşı, beynəlxalq miqyasda da uğurlu və vacib addımlar atır. Onun sözlərinə görə, dünyanın 130-dan çox dövlətinin Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəkləməsi önəmli siyasi hadisədir. Azərbaycan regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsinə ilk gündən öz töhfəsini verməyə çalışıb.

Sonda sədr bütün ərazi ilk partiya təşkilatlarının sədrlərini və üzvlərini bu hadisənin əhəmiyyətini sosial şəbəkələrdə təbliğ etməyə çağırıb.

**MÜŞFİQƏ**

# YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin təşəbbüsü ilə həkimlərlə gənclərin videokonfrans formatında görüşü keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatı Gənclər Birliyinin təşəbbüsü ilə koronovirus pandemiyası dövründə xalqımızın sağlamlığının qorunmasında iştirak edən həkimlərlə gənclərin videokonfrans formatında görüşü keçirilib. Onlayn görüşdə YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri, 1saylı Şəhər Kliniki Xəstəxanasının baş həkiminin müalicə işləri üzrə müavini Məhəbbət İbrahimova, 1 saylı Şəhər Kliniki Xəstəxanasının baş həkiminin birinci müavini Səbinə Əhmədova, YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərminə Yunusova və gənclər iştirak ediblər.

Vebinarı giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərminə Yunusova bildirib ki, ölkəmizdə koronavirus pandemiyasına qarşı olduqca çevik mübarizə aparılır. Onun sözlərinə görə, bu mübarizədə əsas yük, əsas məsuliyyət məhz həkimlərimizin üzərinə düşmüş oldu: **"Hər kəsə yaxşı məlumdur ki, koronavirusla mübarizədə həkimlərin, tibb işçilərinin rolu olduqca böyükdür. Xəstə yaxınlarının ümid yerinə çevrilən həkimlərin və tibb işçilərinin koronavirus infeksiyası ilə mübarizəsi əsl fədakarlıqdır. Onlar mürəkkəb şəraitdə gərgin əmək sərf edərək sutka ərzində demək olar ki, fasiləsiz çalışırlar".**

Sonra YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri, 1 saylı Şəhər Kliniki Xəstəxanasının baş həkiminin müalicə işləri üzrə müavini Məhəbbət İbrahimova və həmin xəstəxananın baş həkiminin birinci müavini Səbinə Əhmədova çıxış edərək deyiblər ki, bütün dünya ölkələri arasında sürətlə yayılmaqda davam edən, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya elan olunan yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində ölkəmizdə bu gün də geniş tədbirlər həyata keçirilir. Ölkə Prezidenti İlham Əliyevin birbaşa rəhbərliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının tələb və tövsiyələrinə uyğun olaraq ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində lazım olan bütün zəruri işlər görülür.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə səhiyyə sahəsində qazanılan uğurlardan danışan həkimlər Azərbaycan dövlətinin səhiyyənin inkişafına böyük qayğı göstərdiyini qeyd ediblər. Bildiriblər ki, istər ölkə rəhbəri İlham Əliyevin, istərsə də respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti bir daha onu sübut edir ki, Azərbaycanda vətəndaş amili, xüsusilə də insanların sağlamlığı və təhlükəsizliyi hər zaman prioritet istiqamət olub və bundan sonra da olacaq.

Həkimlər gənclərə virusdan qorunmaq, onun qarşısının alınması istiqamətində öz tövsiyyələrini veriblər. Sonra gənclərin sualları cavablandırılıb.

Tədbirin sonunda koronavirusla mübarizə aparan fədakar həkimlərimiz gənclər tərəfindən ayaq üstə alqışlanıblar.

# Turani Əliyev: BMT Baş Assambleyasının xüsusi sessiyası pandemiya ilə mübarizədə beynəlxalq səylərin birləşməsinə töhfə verəcək



**"Son illər Azərbaycan nəinki regionda, artıq dünyada yüksək nüfuza sahib olan dövlət kimi tanınır. Azərbaycanın xarici siyasətində dünya dövlətləri ilə bərabər faydalı münasibətləri özünəməxsus yer tutur. O cümlədən ölkəmiz beynəlxalq təşkilatlarla da fəal əməkdaşlıq əlaqələri qurur".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Göygöl rayon təşkilatının sədri Turani Əliyev deyib.

T.Əliyev bildirib ki, ölkəmizin dünyada artan imicinin nümunəsi olaraq Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün təşkilatın üzvü olan 130 ölkənin dəstəkləməsi mühüm hadisədir.

Onun sözlərinə görə, hazırda bütün dünyanın COVİD-19 pandemiyası ilə, sözün əsl mənasında, vuruşduğu bir zamanda bu qlobal təhlükə ilə mübarizədə dünya dövlətlərinin həmrəyliyinin möhkəmlənməsi məqsəd kimi ön plana çıxır. Təşkilat sədrinin fikrincə, bu mövzunun BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında müzakirəyə çıxarılması isə dünyada cərəyan edən bu böhranın nəticələrinin aradan qaldırılmasına, beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə, dünya əhalisinin sağlamlığının qorunmasına xidmət edəcək.

**"Cənab Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü zərurətdən irəli gəlir. Etiraf etmək lazımdır ki, hazırda dünyada koronavirus pandemiyası ilə mübarizə sahəsində müşahidə etdiyimiz vəziyyət o qədər də ürəkaçan deyil. Bəzən pandemiya ilə mübarizə prosesində çaşqınlıq, gərginlik müşahidə edilir, bəzi dövlətlər yalnız öz təcrübəsinə və resurslarına söykənərək bu qlobal bəlaya qalib gəlməyə çalışırlar. Lakin pandemiya qlobal xaraker daşıdığından, təbii ki, dünya dövlətlərindən həmrəyliyin nümayiş etdirilməsi və birgə səylərin göstərilməsi tələb olunur. Eyni zamanda, pandemiyaya qarşı mübarizə prosesində səhiyyə sistemlərində olan boşluqların, dövlətlərin cəmiyyətlərinə sosial və iqtisadi təsirlərin aradan qaldırılması üçün onların genişmiqyaslı dəstəyə ehtiyacı var. Və bu dəstəyə məhz çoxtərəfli əməkdaşlıq və həmrəylik sayəsində nail olmaq mümkündür. Bu baxımdan, böyük ümidlər və əminlik var ki, BMT Baş Assambleyasının xüsusi sessiyası pandemiya ilə mübarizədə dünya birliyində həmrəyliyin tam bərqərar olunmasına, beynəlxalq çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə və bu qlobal təhlükənin aradan qalxması üçün ən səmərəli və düzgün yolun tapılmasına xidmət edəcək",** - deyə T.Əliyev vurğulayıb.

# Cavanşir Yusubov: Bu hadisə Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən birini təşkil edir



**"Azərbaycan Prezidenti cənab İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə dair təşəbbüsünün dünyanın 130 ölkəsi tərəfindən dəstəklənməsi dövlətimizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov deyib.

C.Yusubov bildirib ki, bu hadisə Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən birini təşkil edir. Bu baxımdan, cənab Prezidentin beynəlxalq müstəvidə yüksək səviyyədə qəbul olunması böyük əhəmiyyət kəsb edir.

**"Hazırda dünya ölkələri koronavirus pandemiyasına qarşı mübarizəyə səfərbər olunublar. Çünki hər bir ölkə bu problemdən ciddi şəkildə əziyyət çəkir. Belə bir şəraitdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi dünya ölkələrinin COVID-19 infeksiyasına qarşı mübarizədə həmrəylik və birlik göstərməsinə şərait yaradacaq",** - deyə o qeyd edib.

# YAP Hacıqabul rayon təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə videokonfrans formatında görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə videokonfrans formatında görüş keçirilib.

Videokonfransda çıxış edən YAP Hacıqabul rayon təşkilatının sədri Hafis Bəşirov qlobal bəlaya çevrilmiş yeni növ koronavirus (COVID-19) pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, o cümlədən pandemiyanın ölkə iqtisadiyyatına, vətəndaşların sosial-iqtisadi vəziyyətinə təsirlərinin minimuma endirilməsi istiqamətində atılan addımlardan danışıb.

Rayon təşkilatının sədri bildirib ki, pandemiyaya qarşı mübarizədə fəal rol oynayan ölkəmiz bu gün koronavirusa qarşı qlobal həmrəyliyin vacibilyini ortaya qoyur, bu istiqamətdə əməli addımları ilə seçilir. Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi BMT-nin Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr olnumuş xüsusi sessiyasının keçirlməsinə dair təşəbbüs irəli sürdüyünü deyən H.Bəşirov bu təşəbbüsün dünyanın 130-dan artıq dövləti tərəfindən dəstəkləndiyini diqqətə çatdırıb.

O qeyd edib ki, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının təşkil olunması təşəbbüsünün yüksək səviyyədə dəstəkləməsi, böyük rəğbətlə qarşılanması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir: **"Ölkə Prezidentinin bu təşəbbüsü dünyanın əksər dövlətləri tərəfindən zəruri bir addım kimi qiymətləndirilib. Bu, ölkəmizin, dövlət başçımızın böyük diplomatik uğurudur, tarixi nailiyyətidir. Ölkə Prezidentinin bəşəriyyət üçün son dərəcə böhranlı bir zamanda irəli sürdüyü bu təşəbbüs Azərbaycan dövlətinin qlobal həmrəyliyə, sülhə verdiyi bir töhfədir, ölkəmizin pandemiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın qurulması yönündə addımlar atmasının təzahürüdür".**

Videkonfransda çıxış edən natiqlər Azərbaycan Prezidentinin koronavirus pandemiyasına qarşı mübarizədə səylərin birləşdirilməsi məqsədi ilə irəli sürdüyü təşəbbüsün yüksək səviyyədə dəstəklənməsinin ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasından xəbər verdiyini qeyd ediblər.

Tədbirdə, həmçinin YAP İcra Katibliyinin verdiyi tövsiyə və tapşırıqlar barədə ərazi ilk partiya təşkilatları sədrlərinə məlumatlar verilib, qarşıda duran məsələlər və mövcud dövrdə yaranan problemlərinin həlli yolları, partiyadaxili təşkilati məsələlər müzakirə edilib.

# Aliyə Ağrılı: Modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusla mübarizədə mühüm amillərdən biridir



**"Ölkəmizin pandemiyaya qarşı mübarizə gündəliyində səhiyyə tədbirləri xüsusi yer tutur. Respublikamızda pandemiya şəraitində səhiyyə infrastrukturunun daha da möhkəmləndirilməsi istiqamətində zəruri addımlar atılır ki, burada da əsas məqsəd COVİD-19-a yoluxan bütün xəstələrə məhz xəstəxana şəraitində tibbi xidmət göstərilməsini təmin etməkdən ibarətdir".** Bu fikirləri YAP Gənclər Birliyinin Şura üzvü Aliyə Ağrılı deyib.

Aliyə Ağrılı bildirib ki, iyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışı da bu baxımdan böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, sosial dövlət olan Azərbaycanda pandemiya şəraitində insanların sağlamlığının qorunması üçün ölkənin səhiyyə sistemi təhlükəli xəstəliklə mübarizəyə səfərbər edilib. Belə ki, respublikanın ən yaxşı xəstəxanaları COVİD-19-a yoluxan xəstələrin müayinə və müalicəsinə cəlb ounub. **"Hazırda respublikamızda yeni növ koronavirus infeksiyasına yoluxmuş pasientlərin müalicəsi əsasən xəstəxana şəraitində təmin edilir. Ölkədə ehtiyac yaranacağı təqdirdə 5 mindən çox xəstənin yerləşdirilməsi üçün potensial mövcuddur. Bütövlükdə, respublikamızda pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan səhiyyə tədbirlərinin miqyası kifayət qədər genişdir. O da məlumdur ki, pandemiyaya qarşı mübarizənin səmərəliliyinin artırılmasında düzgün diaqnostika vacib amildir. Qısa müddətdə paytaxt Bakıda və regionlarda 30-a yaxın müasir laboratoriya təşkil olunub. Bu laboratoriyaların sayı 44-ə çatdırılacaq. Əlbəttə, respublikamızda zamanında Prezident İlham Əliyevin ciddi səyləri sayəsində milli səhiyə sistemimiz yüksək inkişaf səviyyəsinə çatdırılmasaydı, indiki pandemiya dövründə COVİD-19-a yoluxan xəstələrin müayinə və müalicəsinin xəstəxana şəraitində təmin edilməsindən heç söhbət açmaq belə mümkün olmazdı. Respublikamızda son 16 ildə səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Bəhs olunan dövrdə ölkə ərazisində müasir tibb müəssisələrinin yaradılması ilə bağlı statistika kifayət qədər zəngindir. Belə ki, son 16 ildə respublikamızda təxminən 750 tibb müəssisəsi tikilib və yaxud yenidən qurulub. Diqqətəlayiq haldır ki, yeni yaradılan səhiyyə müəssisələrinin bir çoxu respublikanın bölgələrinin payına düşür. Bu amil koronavirusla mübarizədə mühüm amildir",** - deyə YAP Gənclər Birliyinin Şura üzvü qeyd edib.